Xalq qəzeti 21 aprel 2024-cü il, bazar № 80.-



# "M Teatr" təkcə səhnə deyil, həm də mədəni mərkəzdir

*Müsahibimiz yeni sənət ocağının yaradıcısı və rəhbəri, Xalq artisti Vidadi Həsənovdur*




**– Vidadi müəllim, "M Teatrı" yaratmaq ideyası necə meydana çıxdı?**

– Mən uzun illərdir Mədəniyyət və İncəsənət Universitetində müəllimlik edirəm. Bu müddətdə çox sayda bacarıqlı və istedadlı tələbələrə rast gəlmişəm. Lakin onların bir çoxunun universiteti bitirdikdən sonra iş tapa bilmədiklərinə görə məyus olurdum. Bir müddət keçirdi və mən həmin tələbələrin taksi sürücüsü və başqa xidmət sektorlarında işləyən görürdüm. Dövlət teatrlarında isə ştata düşmək çox çətindir.

Düşündüm ki, belə gənclərin istedadını üzə çıxarmaları üçün müstəqil teatr yaradaq. "M Teatr" belə yarandı! Gördüyünüz kimi, 2016-cı ildən bu günə qədər bu teatr fəaliyyət göstərir.

**– Teatrın səhnəsində daha çox hansı janrda tamaşalar oynanılır?**

– "M Teatr"da müxtəlif janrlarda maraqlı tamaşalar səhnəyə qoyulur. Teatrın repertuarında yer alan Rövşən Ağayevin "Vidalaşmadan getmə", dahi bəstəkar Üzeyir Hacıbəylinin felyetonları və böyük satirik Mirzə Ələkbər Sabirin şeirləri əsasında hazırlanan "Məsəl və Əməl" tamaşaları teatrsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

Dünya yazıçılarının əsərlərinə də müraciət edirik. Bu tamaşalardan Antuan de Sent Ekzüperinin "Balaca şahzadə", Con Steynbekin "Adamlar və siçanlar" və başqalarını misal çəkmək olar.

**– "M Teatr"ın tamaşalarına daha çox kimlər gəlir?**

– Teatrımızın tamaşaçıları əsasən şəhərimizin intellektual sakinləridir. Biz repertuarı insanların arzu və istəklərinə uyğun olaraq seçirik. Sosial şəbəkələrdə tez-tez sorğular keçiririk. Hansı müəllifin əsərlərini səhnədə görmək istəyirlər? Sorğudan sonra müəyyən qənaətə gəlib həmin tamaşaları hazırlayırıq.

Məsələn, son 4-5 ay ərzində keçirdiyimiz sorğulardan bəlli olub ki, insanlar daha çox "Ovod" tamaşasını səhnədə görmək istəyirlər.

Əslində, hər bir tamaşanın öz tamaşaçısı var. Biz də tamaşaçılarımızdan çox razıyıq.

**– Vidadi müəllim, bir qədər də aktyor heyətinin peşəkarlığı barədə söz açardınız....**

– Bizim teatrda Mədəniyyət və İncəsənət Universitetinin məzunları ilə yanaşı, başqa təhsil ocaqlarını bitirmiş gənclər də var. Onların incəsənət sahəsinə maraqları olduqca böyükdür. Buna misal kimi, teatrın istedadlı aktrisası Oksana Rəsulovanın adını çəkə bilərəm. Baxmayaraq ki, bu xanımın bu sahədə ixtisas təhsili yoxdur, amma teatrda aparıcı aktrisalardandır.

Teatrın yaradıcı heyətində Xarici Dillər Universitetini bitirmiş gənc aktrisa Ayla Rüstəm də var. Bütövlükdə, bizdə istedadlı aktyorlar çoxdur. Ümumiyyətlə, istedad haqqında məşhur bir deyim də var. "İstedadlı insan hər sahədə istedadlıdır".

**– "M Teatr" müstəqil yaradıcılıq təşkilatıdır. Teatrın maliyyə problemləri nə cür həll olunur?**

– Biz dövlət teatrı deyilik ki, bizi maliyyələşdirsinlər. Fəaliyyətimizi bilet satışından gələn gəlirlər hesabına qurmuşuq. Teatr texniki resurslarla - işıq sistemi, səs effektlərini gücləndirmək üçün kompüterlər və başqa avadanlıqlarla təchiz olunub. Yerləşdiyimiz məkanı təmir etmişik.

Çalışırıq ki, bilet satışından əldə etdiyimiz o qədər də çox olmayan gəlirləri səmərəli və faydalı işlərə sərf edə bilək. Bundan əlavə, teatrda şair, yazıçı və digər yaradıcı insanlarla görüşlər keçirilir. Bir qrup gənc aktyor da var ki, onlar tamaşa hazırlayır, lakin nümayiş etdirmək üçün yerləri yoxdur. Biz onlara tamaşalarını kütlə qarşısında göstərə bilmələri üçün müəyyən şərait yaradırıq. Buna görə də hesab edirəm ki, "M Teatr" sadəcə teatr deyil, həm də mədəniyyət mərkəzidir.

***Fidan HÜQUQQIZI***
***Elşən AĞALAR (foto)***
***XQ***

